**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

***Əlyazması hüququnda***

**RƏHİLƏ RƏSUL QIZI KƏSƏMƏNLİ**

# KLASSİK AZƏRBAYCAN PUBLİSİSTİKASININ MÜASİRLİK PRİNSİPLƏRİ

**5720.01 – Jurnalistika**

**Filologiya üzrə fəlsəfə doktoru**
**elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI – 2014**

Dissertasiya Bakı Dövlət Universitetinin Mətbuat tarixi və ideoloji iş metodları kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər**: **Şamil Qiyas oğlu VƏLİYEV**
*filologiya üzrə elmlər doktoru, professor*

**Rəsmi opponentlər: Nəsir Abbas oğlu ƏHMƏDLİ**
*filologiya üzrə elmlər doktoru, professor*

**Abid Həmid oğlu TAHİRLİ**
*filologiya üzrə elmlər doktoru*

**Aparıcı müəssisə: Bakı Slavyan Universitetinin Yeni media və kommunikasiya texnologiyaları kafedrası**

Müdafiə «_21___» ___11 2014-cü il saat «___»-də Bakı Dövlət Universiteti nəzdində filologiya üzrə elmlər doktoru və fəlsəfə doktoru dissertasiyalarının müdafiəsini keçirən D.02.181 Dissertasiya Şurasının iclasında olacaqdır.

Ünvan: AZ 1148, Bakı, Z.Xəlilov küçəsi, 23, Bakı Dövlət Universiteti, əsas bina, II mərtəbə, Videokonfrans otağı.

Dissertasiya ilə Bakı Dövlət Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat «___» ____________ 2014-cü ildə göndərilmişdir.

**D.02.181 Dissertasiya Şurasının**
**elmi katibi, filologiya üzrə elmlər**
**doktoru, professor:** **T.H.HÜSEYNOV**

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.**. Azərbaycan müstəqillik əldə etdikdən sonra (1991) milli tarixin öyrənilməyən, yasaq olunan problemlərinə, irsi yarımçıq, birtərəfli, yalnız materialist, marksist-leninçi prinsiplərlə təhlil edilən ədəbiyyat və mətbuat xidmətlərinin yaradıcılığına elmi-nəzəri maraq daha da artdı. Milli ictimai fikirdə üç təməl faktora – türkləşmək, islamlaşmaq, müasirləşmək (avropalaşmaq) faktoruna əsaslanan azərbaycançılıq yalnız yeni təfəkkür modeli kimi ideologiyanın deyil, həm də müasir ictimai və humanitar elmlərin metodoloji prinsiplərini təşkil etməyə başladı.

Müstəqilliyin ilk illərindən başlayaraq milli ədəbi-mədəni irsin, xüsusən də mətbuat və jurnalistikanın tarixinə baxışdakı yanlışlıqların, ziddiyyətli mülahizələrin, «ağ ləkələrin» aradan qaldırılması mühüm vəzifə kimi qiymətləndirildi. Azərbaycan dili, əlifbası, tarixi, mədəniyyəti və sair bu kimi mühüm ictimai dəyəri olan sahələrdə görülən işlər yeni vüsət aldı. Bu baxımdan Azərbaycan dilinin dövlət dili kimi yeni status alması, latın qrafikalı müasir əlifbaya keçid klassik ədəbi-mədəni irsə və mətbuatın tarixinə yeni metodoloji baxışın gücləndirilməsinə təkan verdi. Azərbaycan milli mətbuatının 120, 125, 130 illik yubileyi haqqında mühüm sənədlərin imzalanması, dövlət tədbirlərinin keçirilməsi, mətbuat xadimlərinin şəxsiyyətinə diqqət yetirilməsi, onların yubileyinin keçirilməsi və əsərlərinin yenidən nəşr edilməsi həmin prosesin tərkib hissəsi kimi qiymətləndirilməlidir. Təsadüfi deyildir ki, milli mətbuatın tarixi rolu müstəqillik illərində rəsmən etiraf edilərək bildirilirdi: «Milli özünüdərkin bərqərar olmasında, vətənpərvərlik hisslərinin aşılanmasında, milli və ümumbəşəri dəyərlərin təbliğində müstəsna rol oynamış Azərbaycan mətbuatı xalqımızın azadlıq və müstəqillik uğrunda mübarizəsinə öz böyük töhfəsini vermişdir». [1] Həmin səbəbdəndir ki, klassik Azərbaycan jurnalistikasının və vətəndaş publisistikasının ənənələrinə maraq elmi-nəzəri əhəmiyyəti ilə yanaşı, həm də ümummilli ictimai-mədəni dəyəri ilə ön plana keçdi, çoxsaylı və çoxçeşidli ədəbiyyat əsərlərinin və publisistik irsin ilkin nümunələr əsasında, ideoloji yarlıqsız və təhrifsiz nəşri vacib məsələyə çevrildi. Bu münasibətlə «Azərbaycan dilində latın qrafikası ilə

[1] Azərbaycan milli mətbuatının yaradılmasının 125 illiyi haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanı. «Xalq qəzeti», 2000-ci il, 28 mart

kütləvi nəşrlərin həyata keçirilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 12 yanvar 2004-cü il tarixli sərəncamında deyilirdi: «…Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin «Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında» 18 iyun 2001-ci il tarixli «Azərbaycan əlifbası və Azərbaycan dili gününün qeyd edilməsi haqqında» 9 avqust 2001-ci il tarixli fərmanları ölkənin ictimai-siyasi həyatında mühüm hadisə olmuş və latın qrafikalı Azərbaycan əlifbasına keçidi bütövlükdə təmin etmişdir… Bununla yanaşı, Azərbaycan ədəbiyyatı, mədəniyyəti və elminin vaxtilə kiril qrafikası ilə çap olunmuş qiymətli nümunələrinin latın qrafikasında yenidən kütləvi şəkildə nəşr olunması günün ən vacib məsələlərindən biri olaraq qalır».[1] Həmin sərəncamda «dövlət müstəqilliyinin rəmzlərindən biri sayılan ana dilinə dövlət qayğısının daha da artırılmasını təmin etmək» zərurəti xüsusi vurğulanır, nəşri nəzərdə tutulan Azərbaycan və dünya klassiklərinin əsərlərinin siyahısında milli jurnalistika və publisistikaya da mühüm əhəmiyyət verilir, görkəmli mətbuat xadimlərinin irsinin yeni nəslə çatdırılması vacib sayılırdı.

Zəngin tarixə malik Azərbaycan publisistikasının bütün zamanlar üçün müasirlik keyfiyyəti kəsb edən çox önəmli nümunələri mövcuddur. Bu nümunələr öz xarakteri ilə yarandığı zaman və sonrakı nəsillərə təsir qüvvəsi ilə, sənətkarlıq xüsusiyyətləri ilə həmişə istər tədqiqatçıları, istərsə də publisistikanın praktik yaradıcılıq istiqamətləri ilə məşğul olan hər kəsi daim maraqlandırmışdır. Zamanın sınaqlarından çıxan və həmişə müasirliyini təsdiq edən belə publisistika yaradıcılığı son jurnalistika araşdırmalarında «klassik publisistika» anlayışı ilə qiymətləndirilməyə başlamışdır[2].

Həqiqətən də, yaranışından dünya jurnalistika məktəblərinə söykənən və bir sıra maraqlı nümunələrini meydana çıxaran Azərbaycan klassik publisistikası zaman keçdikcə daha çox önəm kəsb etməyə başlamışdır. Klassik milli publisistikamızın ictimai xarakteri, onun mövzu

---

[1] Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında sərəncam. «Xalq qəzeti», 2004-cü il, 13 yanvar.

[2] Məmmədli C.Ə. Klassik publisistikamız: dünənin, bu günün, sabahın sənət örnəyi // Azərbaycan publisistika antalogiyası. Bakı: Şərq-Qərb, 2007, s. 4-10; Elçin. Klassiklər və müasirlər. Bakı: Yazıçı, 1987; Abasov A.Ə. Klassiklər həmişə müasirdir. Bakı: Nurlan, 2009; Прохоров Е.П. Публицист и действительность. М.: Изд-во МГУ, 1973; Прохоров Е.П. Проблемы изучения классической публицистики // Ученые записки МГУ, серия «Журналистики», №4, 1990, с. 35 və s.

aləminin zənginliyi, zamanında qaldırdığı problemlər müasir günlərimizdə getdikcə daha da aktuallaşmaqdadır.

Əlbəttə, publisistikanın zamanla, dövrlə, gündəlik həyat hadisələrilə bağlılığı heç kəsdə şübhə doğurmur. Ancaq bu növ yaradıcılığın öz spesifikası ilə bərabər sənət dünyasının, yaradıcılıq fəaliyyətinin özünəməxsusluğuna xidmət edən keyfiyyəti də var. Bütün sahələrdə olduğu kimi publisistika yaradıcılığının da sənət səviyyəsinə yüksəldiyi məqamlar var. Azərbaycan klassik publisistikasını bu gün aktuallaşdıran ən ciddi səbəblərdən biri kimi onun sənətkarlıq keyfiyyətinin yüksəkdə dayanmasıdır. Azərbaycan klassik publisistikasının mətbuatla bağlı bünövrəsi də məhz bu cəhətləri ilə qoyulmuşdur. Bu gün postsovet məkanında, eləcə də Azərbaycanda çox aktual olan söz və mətbuat azadlığı, imperiya siyasətinə qarşı mübarizə demokratik dəyərlərin formalaşması və s. kimi onlarca məsələnin çox maraqlı ifadəsini XIX əsrin sosnu, XX əsrin əvvəllərində meydana çıxan publisistikada daha mükəmməl görmək mümkündür. Hələ XIX əsrin ikinci yarısında «H.Zərdabi, S.Ə.Şirvani, N.Vəzirov və «Əkinçi»nin digər aparıcı publisistləri bir çox başqa məsələlər kimi, demokratik mətbuatın səciyyəsi, qəzetin vəzifələri, mövzu dairəsi və s. haqqında görüşləri ilə çox böyük məsələlər qaldırmışlar».[1] «Molla Nəsrəddin» jurnalı və mollanəsrəddinçilər «yeni bir üslub yaratdı, xalq dilinin normaları əsasında aydın yazı tərzini seçdi»[2] və bununla da publisistikada yeni məktəb formalaşdırdı. «Molla Nəsrəddin» və «Füyuzat» milli mədəniyyət tariximizə bir sıra parlaq nümunələr bəxş etdilər».[3]

Elmi-filoloji fikrin bu cür qiymət verdiyi «Füyuzat» jurnalının materialları (o cümlədən publisistikası – R.K.) ilə tanışlıq belə bir qənaətə gəlməyə əsas verir ki, «…ictimai-tarixi siqlətinə və xüsusi ədəbi məktəb yaratmasına görə füyuzatçıların yaradıcılığı bu gün aktuallıq kəsb edir».[4] Azərbaycan klassik publisistikası, əsasən, bu jurnallarda, habelə onların yolunu davam etdirən satirik və romantik mətbuat nümunələrində özünü ifadə etmiş və populyarlıq qazanmışdır.

Son iyirmi ilin tədqiqatçılıq təcrübəsi sübut edir ki, Azərbaycan mətbuatının, publisistika yaradıcılığının müasir mərhələsi C.Məmməd-

[1] Mirəhmədov Ə. Birinci Azərbaycan qəzeti. «Əkinçi» (tam mətni). Bakı: «Avrasiya press», 2005, s.6-7.
[2] Hüseynov F. «Molla Nəsrəddin» və mollanəsrəddinçilər. Bakı: Yazıçı, 1986, s. 87.
[3] Talıbzadə K. «Füyuzat ədəbi məktəbi» kitabına ön söz. Bakı: Elm və Təhsil, 2009, s.3.
[4] Vəliyev Ş. Füyuzat ədəbi məktəbi. Bakı: Elm və təhsil, 2009, s. 9.

quluzadə, Ə.Hüseynzadə, M.Ə.Rəsulzadə, Ü.Hacıbəyli və b. sənətkarların yaradıcılıq məktəbinə müraciəti çox intensiv və müntəzəm xarakter almışdır. Belə bir şəraitdə klassik publisistikamızın müasir günlərimizdəki yerinin, yeni nəslin tərbiyəsində rolunun, çağdaş ictimai-siyasi fikir məkanına təsirinin, yeni müstəqillik ideyasının gerçəkləşməsində onun misilsiz rolunun tədqiqi mühüm aktuallıq kəsb edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Azərbaycan klassik publisistik irsinin müasirlik prinsipləri ilə araşdırılması bir neçə məqsəd daşıyır. Bunlardan birincisi, klassik publisistik irsin müasir dövrə təsir gücünün səbəbləri ilə bağlıdır. Bu kontekstdə klassik publisistikanın mahiyyəti açılır və onun təsir gücü təhlilə cəlb olunur.

Tədqiqatın digər bir məqsədi klassik publisistikanın müasir şəraitdə yeni qüvvə ilə üzə çıxmasını şərtləndirən ictimai-siyasi zamanın, mühitin xarakterini açmaqdan ibarətdir. Bu məqsədlərə nail olmaq tədqiqatdan aşağıdakı vəzifələri yerinə yetirməyi tələb edir:

- Klassik publisistikanın ictimai xarakterini açmaq;
- Azərbaycan klassik publisistikası ilə müasir publisistikanın mövzu dairəsi arasında paralelləri izləmək;
- Klassik publisistikada ayrıca olaraq milli-azadlıq probleminin qoyuluşu təcrübəsinə nəzər salmaq;
- Klassik publisistik irsi müasir dövrdə aktuallaşdıran siyasi, ictimai, sosial şəraiti təhlil etmək;
- Azərbaycanın yeni müstəqillik ideyasının gerçəkləşməsində klassik publisistikanın yerini göstərmək;
- Klassik publisistik irsin sənətkarlıq məsələlərini təhlilə cəlb etmək;
- Müasir publisistikada klassik publisistika dərslərinin əhəmiyyətini araşdırmaq.

Bu vəzifələrin elmi-filoloji aspektdə yerinə yetirilməsi qarşıya qoyulan əsas məqsədə nail olmağa şərait yaradır.

**Tədqiqatın obyekti.** Tədqiqata cəlb olunan mövzunun əsas obyekti Azərbaycanın klassik publisistika nümunələridir. Bu nümunələr isə tədqiqatın qarşıya qoyduğu məqsəd və vəzifələr kontekstində seçilir. Dissertasiyada daha çox məktəb səviyyəsinə yüksələn publisistlərin yaradıcılığına müraciət edilir.

«Molla Nəsrəddin»çi satirik publisistika örnəkləri və «Füyuzat»çı jurnalistlərin ideya-bədii mövqeyini ifadə edən zəngin yaradıcılıq nümunələri bu mənada diqqət mərkəzində dayanır, onların müasir dövrün tələbləri ilə səsləşən fikir və mülahizələrinə, sənətkarlıq axtarışlarına

mühüm əhəmiyyət verilir. C.Məmmədquluzadə, Ö.F.Nemanzadə, Ü.Hacıbəyli, M.Ə.Rəsulzadə, Ə.Hüseynzadə, M.A.Şahtaxtlı, Ə.Ağaoğlu, H.Vəzirov kimi görkəmli jurnalistlərin publisistik yaradıcılığı ilə yanaşı, onların bədii irsinə də istinad olunur, adı çəkilən müəlliflərin əsərləri müasirlik meyarı ilə qiymətləndirilir. Eləcə də klassik Azərbaycan publisistikasının digər sahələri tədqiqatın predmeti kimi müəyyənləşdirilir. Məsələn, «1918-1920-ci illər Azərbaycanda və onun ətrafında gedən proseslər dövrü mətbuatda (və deməli, həm də publisistikada – R.K.) öz əksini tapırdı. Azərbaycan jurnalistikası bu proseslərin fəal iştirakçısı idi. Hətta o dövrdə jurnalistikanın mühüm bir hissəsinin siyasiləşdiyini də söyləmək mümkündür». [1] «Bugünkü jurnalistikamızın da xeyli siyasiləşdiyini»[2] nəzərə alsaq, məsələn, AXC dövrü publisistikası maraqlı obyektə çevrilir. Digər tərəfdən, Azərbaycanın müasir müstəqillik dövrü hətta, bütöv Azərbaycanın publisistika faktlarını tədqiqat obyektinə qatmağa şərait yaradır. «Sovet imperiyasının dağılması, müstəqil Azərbaycan Respublikasının yaranması ilə ədəbiyyatşünaslıqda hakim olan milli konsepsiya vahid Azərbaycan mədəniyyətinin tərkib hissəsi kimi İranda güney azərbaycanlılarının ana dilində yaratdığı mədəniyyətin… öyrənilməsini xeyli aktuallaşdırdığı»[3] kimi, bu sahədə publisistikanı da tədqiqat obyektinə çevirmək vaxtı çatmışdır.

Klassik publisistik irsin müasirlik prinsipləri ilə öyrənilməsi, təbii olaraq, çağdaş Azərbaycan mətbuatında .özünü göstərən publisistikanı da tədqiqatın obyekti kimi qiymətləndirməyə sövq edir.

**Tədqiqatın nəzəri və metodoloji əsası.** Tədqiqatın nəzəri əsasları predmetə uyğun olaraq publisistika nəzəriyyələri ətrafında cərəyan edən tarixi və müasir fikirlərə söykənir. Mətbuatın avtoritar, libertarian, kommunist və azad iradə kimi formalaşdırılmış dörd nəzəriyyəsi əsas götürülmüşdür. Azərbaycan mətbuatının öz tarixi inkişaf prosesində həmin nəzəriyyələrin hamısına müraciət etməsi problemə bu rakunsdan baxmağı şərtləndirmişdir. Milli mətbuatımızın yarandığı və inkişaf etdiyi ilkin çağlar (XIX əsrin ikinci yarısı) çar senzurası, Azərbaycana bolşeviklərin

---

[1] Quliyeva Q. Azərbaycan Xalq Cümhuriyyəti dövrünün jurnalistikası (1918-1920-ci illər): Filol. elm.nam. ... dis.avt. Bakı, 2005, s. 15.

[2] Amaşov Ə. Siyasiləşmə jurnalistikanın problemlərindən biridir. «525-ci qəzet», 2006-cı il, 26 may.

[3] Məmmədova P. «Varlıq» jurnalında ədəbiyyat məsələləri: Filol. elm.nam. ... dis.avt. Bakı, 2002, s. 3.

ekspansiyasından sonra sovet senzurası şəraitində nəzəri fikirlərin qaynağında qiymətləndirilir, onun müasir müstəqillik dövrü ilə əlaqələrinə ciddi əhəmiyyət verilir. Tədqiqat işində müasir Azərbaycançılıq məfkurəsinin təməl faktorları – türkləşmək, islamlaşmaq və avropalaşmaq (müasirləşmək) ideyası elmi-nəzəri təhlilin metodoloji əsası kimi mühüm səciyyə daşıyır və tarixən irs-varislik əlaqələri zəminində inkişhaf edən milli publisistikanın yaradıcılıq özəlliklərini şərhə meydan açır. Bunun üçün tədqiqatın metodoloji əsasında həm də mətbuat və publisistika tarixinə kompleks baxış konsepsiyası dayanır. Milli jurnalistikamızın tarixi ənənələri və müasir fəaliyyətinin təhlili publisistika ilə vəhdətdə götürülür. Publisistikaya beynəlxalq nəzəri təcrübə kontekstində baxış metodoloji əsas kimi qəbul edilir.

**Mövzunun öyrənilmə dərəcəsi.** Azərbaycan milli mətbuatının tədqiqatçıları xeyli müddətdir ki, jurnalistikanın tarixi inkişaf mərhələləri və ayrı-ayrı konkret mətbuat xadimləri, yaradıcı publisistlərin fəaliyyəti barədə tədqiqatlarda bütövlükdə publisistikanın ümumi qanunauyğunluqları barədə araşdırmalar aparmışlar*. Xüsusilə son əlli ildə Azərbaycan bədii publisistikası bir sıra hallarda ayrıca tədqiqat obyekti olmuşdur**. Azərbaycan mətbuatı tarixi ətrafında aparılan tədqiqatların bir çoxunda araşdırılan mətbuat orqanının publisistika materialları barədə də xeyli söhbət gedir. Lakin publisistikanın klassik xarakteri, bu xarakterdən doğan keyfiyyətlər təhlil edilmir. Professor Ş.Hüseynovun 1980-ci illərin sonlarından başlayaraq XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycan mətbuatı səhifələrində özünü göstərmiş publisistik nümunələri toplaması, onlara müfəssəl şərh verməsi və ayrı-ayrı kitablar şəklində nəşr etdirməsi klassik publisistikanın tədqiqi sahəsində hadisə hesab edilə bilər. Əlbəttə, Ş.Hüseynovun bu fəaliyyəti bir tərəfdən vətəndaşlıq hissilə bağlıdırsa,

---

* Mirəhmədov Ə. Azərbaycan «Molla Nəsrəddin»i. Bakı: Yazıçı, 1980; Həbibbəyli İ. Cəlil Məmmədquluzadə: mühiti və müasirləri. Bakı: Azərnəşr, 1997; Ağayev İ. Əlabbas Müznib: həyatı, yaradıcılığı. Bakı: Elm, 2003; Məmmədağa Şahtaxtlı: taleyi və sənəti. Bakı: Nurlan, 2008; Hacıbəyli Ü. Nəşrlərdə kənara qoyulmuş mətbu əsərləri. Bakı: Elm, 2009 və s.

** Mehdi F. Bədii publisistika. Bakı: Yazıçı, 1984; Vəliyev Ş. «Füyuzat» ədəbi məktəbi. Bakı, 2009; Məmmədli C. Müasir jurnalistika. Bakı, 2005; Elçin. Ədəbiyyatımızın problemləri. Bakı, 2003; Klassiklər və müasirlər. Bakı, 1986; Aslanov M. Üzeyir Hacıbəyov – jurnalist. Bakı: Azərnəşr, 1985; Hacıyev T. «Molla Nəsrəddin»in dili və üslübü. Bakı: Yazıçı, 1983; Hacıyeva L. Əhmədbəy Ağayevin publisistikası («Kaspi» qəzetinin materialları əsasında): Filol.elm.nam. ... dis.avt. Bakı, 2006; Hüseynov Ş. Müstəqilliyin çətin yolu. Biz hara gedirik? Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1996; Hüseynov Ş. Mənəvi irsimiz və gerçəklik. Bakı: Adiloğlu, 2004 və s.

digər tərəfdən elmi mahiyyət daşıyır. Lakin bu böyük və məsuliyyətli işi ciddi qiymətləndirməklə bərabər, onu da deməliyik ki, klassik publisistikanın müasir dövrdə aktuallıq kəsb etməsinin səbəbləri hələ tam elmi şəkildə tədqiqata cəlb edilməmişdir.

Azərbaycan istiqlal publisistikasının şərəfli bir tarixi var. Bu tarix təkcə Azərbaycanda deyil, siyasi publisistlərimizin mühacirətdə olduğu qardaş Türkiyədə, Polşada, hətta Fransada yaranırdı. Türkiyədə İkinci dünya müharibəsindən sonra işıq üzü görmüş «Azərbaycan», «Mücahit», «Türk izi» jurnallarında Bakının qurtuluşu tarixi yetərincə oxuculara təqdim edilirdi[1]. Dünyanın imkan düşən hər yerində siyasi mühacirət publisistikası özünü göstərmişdir. Azərbaycan legionerlərinin fəaliyyətinin davamlı tədqiqatçısı N.Yaqublu siyasi mühacir Əbdürrəhman Fətəlibəyli-Düdənginski kimi istiqlal mücahidlərini həm də istedadlı publisist kimi tədqiq edir. Tədqiqatçı onun 1950-ci illərdən əvvəlcə «Qurtuluş», sonralar «Azadlıq» adlanan radiodakı çıxışlarının publisist mahiyyətini ustalıqla təhlil etmişdir .[2]

Azərbaycan milli publisistikasının tarixi həqiqətləri və müasir dəyəri tədqiqatların indiyə qədərki çoxsaylı maraq dairəsində olmuşdur.

**Tədqiqatın elmi yeniliyi**. Azərbaycan klassik publisistikasının müasirliyi probleminin özü bir mövzu kimi tamamilə yenidir və problem bu aspektdə indiyədək kompleks şəkildə öyrənilməyib. Azərbaycan mətbuat tarixində özünə layiqli yer tutan publisistika yaradıcılığının zaman çərçivəsindən çıxıb indiki dövr üçün də aktuallıq kəsb etməsi ətrafında obyektiv tədqiqat Azərbaycanın müstəqillik xarakteri ilə şərtlənir. Hətta, müstəqillik dövründən əvvəlki tədqiqatlarda klassik publisistikamızın bəzi aspektlərinə müəyyən nəzər salınmış olsa da, problemə bu günün prizmasından baxış tamamilə yeni yanaşma tərzi tələb edir. Qısa şəkildə desək, tədqiqatın elmi yeniliyi özündə aşağıdakı aspektləri ehtiva edir:

1. Klassik publisistika anlayışı elmi dövriyyəyə salınır və indiyədək publisistika nəzəriyyəsi bu növ yaradıcılığın yalnız yarandığı dövr üçün aktual olması fikri təkzib edilir;

2. Klassik publisistika yarandığı dövrün tarixi və bu günün müasirlik axtarışları kontekstində təhlilə cəlb edilir;

3. Klassik publisistika tematikasına görə qruplaşdırılır və bu qrupda ilk dəfə milli azadlıq hərəkatına bağlı mövzular obyektiv təhlil edilir;

---

[1] Yaqublu N. Bakının qurtuluşu. Bakı: Aduloğlu, 2008, s.6.

[2] Yaqublu N. Bakının qurtuluşu. Bakı: Adiloğlu, 2008; Yaqublu N. Əbdürrəhman Fətəlibəyli-Düdənginski. Bakı: Adiloğlu, 2008.

4. Klassik publisistik irsin bu günkü publisistika yaradıcılığına təsiri də ilk dəfə tədqiqata cəlb olunur.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Araşdırma publisistikanın klassik nümunələri əsasında bu növ yaradıcılığın müxtəlif dövrlər üçün aktuallığının nəzəri əsaslarını aydınlaşdırır. Həmçinin ümumi publisistika nəzəriyyəsi kontekstində klassik publisistikanın yerini müəyyənləşdirməyə imkan yaradır. Tədqiqat klassik publisistikanın mahiyyətini nəzəri cəhətdən əsaslandırır və bu sahədə yeni nəzəri mülahizələr irəli sürür.

Tədqiqatın praktik əhəmiyyəti mühüm elmi-nəzəri və pedaqoji səciyyəsi ilə dəyərlidir. Dissertasiyada klassik publisistikanın nəzəri məsələləri ilə bağlı irəli sürülən fikir və mülahizələr praktik publisistlər üçün gərəklidir. Həm də bu tədqiqat işi gələcək araşdırmalara açar rolu oynaya bilər. Dissertasiyadan mətbuat tarixi və jurnalistika ilə məşğul olan mütəxəssislərin faydalanması məqsədəuyğundur.

**Tədqiqatın aprobasiyası.** Dissertasiya işi Bakı Dövlət Universitetinin Mətbuat tarixi və ideoloji iş metodları kafedrasında yerinə yetirilmişdir. Tədqiqatın əsas tezisləri Bakı Dövlət universitetinin elmi əsərlərində, Rusiyada nəşr olunan jurnallarda dərc edilmişdir.

**Dissertasiyanın quruluşu.** Tədqiqat giriş, üç fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## İŞİN MƏZMUNU

Dissertasiyanın I fəsli **"Klassik publisistikanın yaradıcılıq xüsusiyyətləri"** adlanır. Bu fəsil üç bölmədən ibarətdir. "Azərbaycan klassik publisistikasının ictimai xarakteri" adlanan birinci bölmədə göstərilir ki, publisistikanın mahiyyəti, xarakteri, mövzu dairəsi, mətbuatda yeri və s. barədə xeyli nəzəri ədəbiyyat mövcuddur[1]. Azərbaycan elmi-nəzəri fikir mənbələrində M.F.Axundovun, N.Nərimanovun, M.Şahtaxtlının, C.Məmmədquluzadənin, Ö.F.Nemanzadənin, Ü.

[1] Bax: Mehdi F.Bədii publisistika. Bakı: Maarif, 1982; Məmmədli C. Jurnalistikaya giriş. Bakı: Bakı Universiteti, 2001; Rəsulov Ə. Türk sənədli-bədii nəşri. Bakı: Elm, 2004; Гусейнов Ш. Публисистическое наследие и современность. Баку: Элм, 2007; Ağayev İ. Ədəbiyyat, mətbuat və publisistika problemləri. Bakı: Elm, 2008; Публицистика русского зарубежья. История и публицистика. М.: Изд-во МГУ, 1999; Прохоров Е.П. Публицистика и действительность. М., 1973; Прохоров Е.П. Публицистика в жизни общества. М., 1968; Ученова В.В. Гнесологические проблемы публицистики. М., 1971 və s.

Hacıbəylinin və digər bir çox publisistlərin yaradıcılığı barədə dəyərli əsərlər vardır[1]. Bundan əlavə son vaxtlar aktuallıq kəsb edən milli tarixi publisistika materialları çap olunmaqdadır[2]. Publisistikaya dair tədqiqatlarda yaradıcılığın bu növü ətrafında nəzəri fikirlər müxtəlifdir. Bu əsərlərin hər birində publisistikaya müxtəlif aspektlərdən yanaşılır və hər bir tədqiqatçının fərdi fikirləri öz əksini tapır. Bu fərdi fikirlərdə çoxsaylı mövqelərin olmasına baxmayaraq, nəzəriyyəçilərin hamısı publisistikanı günün müasir məsələləri ilə məşğul olan bir yaradıcılıq sahəsi kimi qiymətləndirir. Belə bir fikir təxminən əksər tədqiqatçıların gəldiyi nəticədir: "Publisistika real həyat hadisələrini, *günün mühüm ictimai-siyasi problemlərini* (kursiv mənimdir – R.K.) əsasən konkret insan xarakterləri və tiplər, lirik təəssüratlar, əhval-ruhiyyələr, fərdi emosional düşüncələr, social-fərdi tədqiqlər Vasitələrilə əks etdirmək formasıdır"[3].

Publisistikanın milli-ictimai mahiyyəti sovet dövrü tədqiqatlarında ona obyektiv qiymət verməyə imkan yaratmamışdır. Sovet ideoloji maşını klassik publisistikanın mahiyyətini azaltmağa və onun xarakterini communist ideologiyasının təbliğinə xidmət etməyə yönəltmişdir. Azərbaycanın yeni müstəqillik çağı XIX əsrin ikinci yarısl və XX əsrin əvvəllərində meydana çıxan böyük publisistikanın əsl mahiyyətini açmağa, onu obyektiv qiymətləndirməyə şərait yaratmışdır. Bu gün Ə.Hüseynzadə, Ə.Ağaoğlu, M.Ə.Rəsulzadə, N.NƏrimanov, C.Məmmədquluzadə, Ö.F.Nemanzadə, Ü.Hacıbəyli kimi publisistlərin yaradıcılığına qayıdış

---

[1] Mir Cəlal. Azərbaycanda ədəbi məktəblər. Bakı: Ziya-Nurlan, 2004; Mirəhmədov Ə. Azərbaycan Molla Nəsrəddini. Bakı: Yazıçı, 1980; Həbibbəyli İ. Cəlil Məmmədquluzadə: mühiti və müasirləri. Bakı: Azərnəşr, 1997; Həbibbəyli İ. Ədəbi-tarixi yaddaş və müasirlik. Bakı: Nurlan, 2007; Qurbanov Ş. Ömər Faiq Nemanzadə. Bakı: Gənclik, 1992; Hüseynov Ş. Mənəvi irsimiz və gerçəklik. Bakı: Ağaoğlu, 2004; Hüseynov Ş. Mətbu irsimizdən səhifələr. Bakı: Çənlibel, 2007; Hüseynov Ş. Müstəqilliyin çətin yolu... Bakı: Elm, 2009; Məmmədov A. Cəlil Məmmədquluzadə yaradıcılığında Azərbaycançılıq. Bakı: Elm, 2003; Ağayev İ. Əlabbas Müznib. Bakı: Elm, 2003; Azərbaycan publisistikası antologiyası. Bakı: Şərq-Qərb, 2007; Babayev İ. S.M.Əfəndiyev-publisist. Bakı, 1987.

[2] Ordubadi M.S. Qanlı illər. Bakı: Qarabağa Xalq Yardımı Komitəsi, 1991; Hüseynzadə Ə. Qırmızı qaranlıqlar içində yaşıl işıqlar. Bakı: Azərnəşr, 1996; Nemanzadə Ö.F. Seçilmiş əsərləri. Bakı: Yazıçı, 1992; Hacıbəyli Ü. Fitnələr qarşısında. Bakı: Azərnəşr, 1995; Hacıbəyli Ü. Seçilmiş əsərləri: 2 c., Bakı: Şərq-Qərb, 2005; Şahtaxtlı M. Seçilmiş əsərləri. Bakı: Çaşıoğlu, 2006; Hüseynzadə Əlibəy. Seçilmiş əsərləri: 2 c., Bakı: Çaşıoğlu, 2008 və s.

[3] Mehdi F. Bədii publisistika. Bakı: Maarif, 1982, s. 17.

publisistikanın klassikliyini sübut edən faktdır. Çünki "belə publisistika əbədiyaşar olub zaman keçdikcə daha böyük məzmun və məna daşıyır"[1].

Klassik publisistikanın bu gün üçün də aktuallıq kəsb edən belə nümunələrinin yenidən nəşri xalqımızın mətbuat tarixində yatıb qalan yazıları üzə çıxarmaq mənasında son dərəcə vacib rol oynayır. Belə əsərlərin nəşri üzərində indi də iş getdiyi hiss olunsa da, onların əksəriyyəti müstəqilliyimizin ilk illərində çapdan çıxmışdır. Həmin kitabların böyük bir hissəsi sovet dövründə tam qadağa qoyulmuş publisistlərimizə aiddir. Bu barədə növbəti fəsillərdə geniş bəhs edəcəyik. Lakin indi onu da qeyd etmək xüsusi yerinə düşər ki, gətirdiyimiz misallardan göründüyü kimi, Azərbaycan milli klassik publisistikası çox ciddi ictimai mahiyyət kəsb etmiş və etməkdədir.

Dissertasiyanın **"Azərbaycan klassik publisistikasının mövzu dairəsi"** adlanan ikinci bölməsində göstərilir ki, publisistikanın əsas vəzifəsi "həqiqəti car çəkməkdir"[2]. Azərbaycan klassik publisistləri xalqın problemlərini, dərdlərini "car çəkən" əsərləri ilə çox böyük vətəndaşlıq işi görmüşlər. Azərbaycan publisistikasının ustad nümayəndələrindən biri olan Cəlil Məmmədquluzadə millətə xidmət etməyi əsas vəzifə saymışdır[3]. Bütöv Azərbaycan məmləkəti ideyası onun,demək olar ki, bütün yaradıcılığının ruhunu təşkil edir. Ədib özünün "Üzr istəyirəm" felyetonunda "hər bir vətən övladının" borcunu *"öz hökumətinin, məmləkətinin* (kursiv mənimdir – R.K.) təmiri yolunda ona əl uzatmaqda"[4] görürdü. Cəlil Məmmədquluzadə üçün Azərbaycan məmləkəti dünyanın müqəddəs məkanıdır. Onun əsərlərində aydın görünən vətənə yanımlılıq, onun dərdlərinə dərman axtarışları sübut edir ki, böyük ədibin bu məmləkəti bütöv və azad görməkdən savayı arzusu olmayıb. İstər öz yaradıcılığının, istərsə də "Molla Nəsrəddin"in bütün mərhələlərində Cəlil Məmmədquluzadə publisistikası millətin "milli özünüdərketmə prosesinin dərinləşməsinə xidmət etmişdir"[5]. Bu proses isə Azərbaycan deyilən bir məmləkətin qorunmasına, bütövləşməsinə, təkmilləşməsinə xidmət etməlidir.

---

[1] Новомберский Н. Освобождение печати // История печати. Антология. М: Аспект Пресс, 2001, с. 201.

[2] Короленко В.Т. Собр. соч. том 9, М., 1955, с. 450.

[3] Həbibbəyli İ. C.Məmmədquluzadə: mühiti və müasirləri. Bakı: Azərbaycan Dövlət nəşriyyatı, 1997, s. 409.

[4] "Molla Nəsrəddin" jurnalı, 1927, 13 oktyabr, № 42.

[5] Həbibbəyli İ. C.Məmmədquluzadə: mühiti və müasirləri, s. 417.

Akademik İ.Həbibbəyli doğru göstərir ki, C.Məmmədquluzadə yaradıcılığında Azərbaycan məmləkəti ideyasının tematik ifadəsinə bir neçə mühüm bucaqdan yanaşmaq olar:

1. Azərbaycan məmləkətinin tarixi ərazi bütövlüyü;
2. Azərbaycan məmləkətinə vətəndaş məhəbbəti;
3. Azərbaycan məmləkətini sivil göstərmək arzusu.

Azərbaycan klassik publisistikasının bu gün üçün aktual nümunələri Əlibəy Hüseynzadə yaradıcılığında da çox qabarıq görünür.

Ə.Hüseynzadə publisistikası milli mücahidlik məktəbi olmaqla bərabər, bütün türk dünyasının istiqlal əsəridir. Təsadüfi deyil ki, "XX əsrin 90-cı illərində millətimizin ictimai-siyasi həyatında yaranan dönüş özünü ilk növbədə Əli bəy Hüseynzadəyə münasibətdə göstərdi... Qısa müddətdə ədibin dünyagörüşünün və irsinin öyrənilməsi sahəsində xeyli iş görülür"[1]. Çünki onun əsərləri, xüsusilə publisistikası Azərbaycanın 1980-ci illərin II yarısından başlayan müstəqillik uğrunda yeni mübarizə dövrünün əsl yolgöstərəni idi.

Türkiyə mühitinə, türk dünyasına yaxşı bələd olan və ömrünün bir hissəsini Türkiyədə yaşayan Ə.Hüseynzadə Azərbaycanda milli mətbuatın, milli istiqlal düşüncəsinin yaranmasına xidmət etmişdir. "Onun səyi nəticəsində "Həyat" qəzeti Azərbaycanda türkçülük ideyalarının dirçəlməsində mühüm başlanğıca çevrilmişdir"[2].

Türkçülük ideyalarını daha da inkişaf etdirməkdə Ə.Hüseynzadənin redaktorluğu ilə 1 noyabr 1906-cı ildə Bakıda nəşrə başlayan həftəlik "Füyuzat" dərgisi mühüm mərhələ olmuşdur.

Ə.Hüseynzadə türk xalqlarının həyatında hökm sürən ruslaşma, farslaşma siyasətinə qarşı irəli sürdüyü nəzəri doktrinada türkləşmək məramını türkçülük ideologiyasının milli təməl prinsipləri kimi təqdim edərək yazırdı: "O millət, o qövm səadət və nicat tapa bilər ki, öz qövmiyyətini, dilini, dinini, tarixini, adət və əxlaqını öyrənir. Bu məramla o, türk xalqlarının ictimai-siyasi fikir tarixində milli özünüdərk problemini gətirir və həmin xalqların "türk" adını təsdiq edir"[3].

İslamlaşmaq məramı türkçülük ideologiyasının mənəvi prinsipidir. Bu qayə ilə Ə.Hüseynzadə islam dininin ümumbəşəri mənəvi-əxlaqi dəyərlərinin öyrənilməsini tələb edirdi. O, ilk növbədə Qurani-Kərimin

---

[1] Bayramlı O. Görkəmli fikir dühası. "Əli bəy Hüseynzadə. Seçilmiş əsərləri"nə giriş sözü. Bakı: Çaşıoğlu, 2008, s. 26.

[2] Həbibbəyli İ. Cəlil Məmmədquluzadə: mühiti və müasirləri. Bakı: Azərnəşr, 1997, s. 320.

[3] Bayramlı O. Göstərilən əsəri, s. 11.

bütün müsəlman xalqlarının dilinə tərcümə edilib yayılmasını əsas sayırdı. Ona görə ki, islam dini türk birliyinin, milli mədəniyyətlərin və əxlaqi sağlamlığının təməlidir: “Allahını tanıyan millət, milli birliyini də dərk edəcəkdir”.

Avropalaşmaq məramı ilə Ə.Hüseynzadə ilk dəfə olaraq Şərq-Qərb sintezini ictimai, ədəbi fikrə gətirir, Avropanın elm-texniki nailiyyətlərinin iqtisadi və siyasi idarəetmə strukturlarının öyrənilməsini tələb edərkən ifratçılığa yol verməməyə, ayıq-sayıq olmağa çağıraraq yazırdı: “Biz istəyiriz ki, islam ölkəsinə onların beynləri, dimağları girsin, boğazları, mədələri girməsin. Biz istəriz ki, ölkəmiz onların beynlərini həzm etsin. Yoxsa mədələrində həzm olunmasın”.

Ə.Hüseynzadə əsrin əvvəllərində türkçülük fəaliyyəti ilə türk xalqlarını yeni həyat məcrasına salır. Türkiyə mühərriri S.Nüzhet yazırdı: “Taleyin, tarixin ona verdiyi vəzifənin ucalığını, böyüklüyünü qeyd edən Azərbaycanda başladığı cihadla az bir zaman içində vətənini bir fars əyalətindən məfkurəli və inamlı bir “türk yurdu”na çevirdi və buyurdu çar Rusiyasına və erməni millətçilərinə qarşı qoydu”.

Azərbaycanda siyasi fəaliyyətə başladığı ilk addımlardan, 1905=ci ildən redaktoru olduğu “Həyat” qəzetində Azərbaycanın milli-istiqlal bəyannaməsini elan etmişdir:

“Biz qafqazlıyıq – Qafqaz əhlinin öz ümuri-idarəsinə özü baxa bilmək üçün lazım gələn muxtariyyət tələb ediriz. Müsavati-tammə istəyiriz”.

İlk dəfə Ə.Hüseynzadə publisistikasında verilən bu milli istiqlal bəyannaməsi o zaman təkcə ədibin vətəni Azərbaycanda deyil, bütün türk xalqları arasında sürətlə yayılaraq, böyük ümidlə qarşılanmış və onlarda həmrəylik doğurmuşdur.

Dissertasiyanın **“Klassik publisistikada milli azadlıq problemləri və onun müasir dərki”** adlanan bölməsində göstərilir ki, hər bir xalqın tarixində onun mətbuatı, bu mətbuat vasitəsilə millətə önəmli söz deyən publisistləri ciddi yaradıcılıq faktları ilə dünən də, bu gün də əhəmiyyətli ideyalar daşıyıcısıdır. “Azərbaycanın çox böyük istedad, qeyrət və qələm sahibi olan şəxsiyyətləri tərəfindən nəşr və idarə edilən mətbuat orqanları səhifələrində təkcə öz dövrü üçün deyil, bu günümüz və gələcəyimiz üçün də lazımlı və faydalı fikir xəzinəsi hifz edilməkdədir”[1]. Sovet dönəmində filoloji və humanitar tədqiqatların hamısında tələb olunan ideoloji istiqamət

[1] Hüseynov Ş. Mənəvi irsimiz və gerçəklik. Bakı: Ağaoğlu, 2004, s.3.

bu mənəvi irsə obyektiv yanaşmağa imkan verməmişdir. Az-çox obyektiv fikir demək təşəbbüsü göstərən əllər "yandırılmış, repressiyaya uğramışdır"[1]. "Bu repressiyalar milli respublikalarda daha güclü, daha sərt olmuşdur"[2]. Bütün bunlarla belə öz yaradıcılığını xalqa, onun azadlığına həsr edən publisistlərin yaradıcılığı tarixin yaddaş səhifələrində, arxivlərdə qorunmaqdadır. "Məlumdur ki, bədii sənət (o cümlədən bədii publisistika – R.K.) senzuradan az da olsa, yaxa qurtardığı çağda öz mövzularını, illərlə sinəsini deşən tematikasını birnəfəsə ifadə etmək üçün çevik yollar, çevik formalar, çevik üsullar axtarır"[3]. Azərbaycan mətbuat tədqiqatçıları bu yaradıcılıq axtarışlarını senzura qadağaları ucbatından uzun müddət ortaya çıxara bilməmişlər. Yalnız Azərbaycan özünün yeni müstəqilliyini əldə edən kimi mətbu irsimiz, klassik publisistikamız haqqında orijinal, obyektiv tədqiqatlar meydana çıxdı. Azərbaycanın müasir gənc oxucusuna məlum oldu ki, milli klassik publisistikamızın ağır çar və sovet senzura sistemi şəraitində yazıb-yaratdığı əsərlər bu gün üçün də böyük aktuallıq kəsb edir. Bu publisistikanın konkret mövzuları sırasında milli azadlıq ideyaları ayrıca yer tutur. Azərbaycanın H.Zərdabi, C.Məmmədquluzadə, Ə.Hüseynzadə, Ö.F.Nemanzadə, Ü.Hacıbəyli, M.Ə.Rəsulzadə, Ə.Ağaoğlu və s. kimi onlarca publisisti rus imperiyası sistemində xalqın çəkdiyi zülmü, milli ayrıseçkiliyi, istibdadı öz yaradıcılığının ayrıca tematikasına çevirmişdir. Bu publisistika H.Zərdabidən başlayır, Ə.Hüseynzadə yaradıcılığı ilə davam edir və M.Ə.Rəsulzadə ideyaları ilə zənginləşərək 1918-ci ildə Şərqdə ilk Cümhuriyyətin qurulması ilə nəticələnir.

Azərbaycan klassik publisistikasının obyektiv, kommunist ideologiyasından uzaq tədqiqi və yenidən nəşr edilməsi prosesi xeyli vaxtdan bəri başlamış və uğurla davam etməkdədir. Həm də ayrıca qeyd edək ki, bu günkü oxucuya yenidən çatdırılan publisistika nümunələri daha çox milli azadlıq mövzusunda olanlardır. Azərbaycan klassik publisistikasının görkəmli tədqiqatçısı, professor Ş.Hüseynovun ən yeni araşdırmaları da bu mövzudakı əsərlərlə bağlıdır. Onun son illərdə XX əsrin əvvəllərində işıq üzü görmüş qəzet və jurnallarımızda qorunub saxlanan, publisistik nümunələri xüsusi şərhlə, bu yazıların müasir dövr

---

[1] Məmmədli C. Müasir jurnalistika. Bakı: Bakı Universiteti, 2005, s.23.

[2] Горчева А.Ю. Главлит: Становление советской тотальной цензуры// Вестник МГУ, серия "Журналистика", № 3, 1992, s. 35

[3] Cəfərov N. İdeoloji postulatlardan estetik dəyərlərə. C.Məmmədlinin "Çağdaş Azərbaycan nəsrinin inkişaf meylləri" kitabına ön söz, Bakı, 1998, s. 4.

üçün aktuallıq kəsb etdiyini aydınlaşdıraraq topladığı və müxtəlif kitablarda indiki oxucuya çatdırdığı bu əsərlər böyük maraqla qarşılanmaqdadır.

Dissertasiyanın **"Klassik publisistik irsin müasirliyini şərtləndirən amillər"** adlı ikinci fəsli üç bölmədən ibarətdir. **"Klassik publisistikanı müasir dövrdə aktuallaşdıran siyasi, ictimai, sosial şərait"** adlanan birinci bölmədə bildirilir ki, Azərbaycan publisistikasının maraqlı, nəsildən-nəsilə ötürülən ənənələri var. Lakin çox təəssüf ki, bu ənənələr 1920-ci ildən Azərbaycana bolşevik ekspansiyasından dərhal sonra qırılmış və jurnalistikamız milli zəmindən uzaqlaşmışdır. Bütövlükdə 70 il müddətində (1920-1990) Azərbaycanda hökm sürən sovet senzurası mətbu əsərlərdə, xüsusilə sözünü xalqa birbaşa çatdıran publisistika üzərində qadağaları möhkəmləndirmişdir. Bütün XX əsr boyu davam edən bu prosesin-kommunist mətbuat modelinin publisistikanın inkişafına vurduğu zərbə ölçüyəgəlməzdir. Jurnalistikanın avtoritar, libertarian, azad idarə kimi tarixən formalaşmış nəzəri, praktik modelləri sırasında kommunist mətbuat modeli özünün qeyri-insani və mətbuat azadlığına vurduğu zərbəsi ilə tarixə düşmüşdür. "Bu gün bəşəriyyət informasiyalı cəmiyyətə qədəm qoyur. Lakin özünün inkişaf yolunda jurnalistikanın rast gəldiyi xüsusi maneə mərhələləri də çox olmuşdur. Bu mərhələlərdən başlıcası dünyada analoqu olmayan bolşevik mətbuatının meydana gəlməsi və fəaliyyəti ilə bağlıdır[1]". Bütün bunlarla bərabər, klassik publisistika, jurnalistika ənənələrinə əsaslı qayıdış baş verməkdədir.

1990-cı illər Azərbaycan mediasında funksional jurnalistikanın bütün modellərinin iştirakını nəzəri fikir qəbul etməyə başlamışdır. İqtidar, müxalifət, müstəqil media kimi diletant bölgüsünün özü nisbi olsa da, hələlik ictimai rəydə belə nisbilik bölgüsü "müstəqil" şkalasında özünü daha çox göstərir. İqtidar – müxalifət müstəvisində durub da çalışan KİV-dən rənglərin hamısını görməyi ummaq oxucunun, tamaşaçının sadəlövhlüyü olardı. Rənglərin və ələlxüsus çalarların aydın görünəcəyi yer müstəqil (liberal) mediadır. Demokratik institutların xeyli dərəcə inkişaf etdiyi və medianın rəsmi-ofisioz qolunun da saxlandığı ölkələrdə, hətta bu qolun özünün belə cəmiyyətdəki palitranı olduğu kimi, obyektiv əksetdirmə bacarığı bizim "müstəqil" mediamızda indi-indi formalaşmağa başlayır. KİV keçid dövrünün bütün ağrılarını yaşayan və bu ağrılardan formalaşan demokratiya institutudur. Bu institutun müstəqil qanadının formalaşmasında əsas ağırlıq KİV-in bütün tiplərində özünü göstərən

[1] Məmmədli C. Jurnalistikanın müasir inkişaf meylləri. Bakı, 2007, s.20.

müstəqil jurnalist şəxsiyyətinin üzərinə düşür. Dünya praktikasında müstəqil jurnalist şəxsiyyəti çox zaman media nümunəsinin müstəqilliyini də təmin edir. Əlbəttə, həyatın bütün sahələrində ağırlıq müstəqil fikirli, cəsarətli adamların çiynindədir. Jurnalistika cəmiyyətə açıq pəncərə olduğu üçün onun evində kimin kimliyi açıq hiss edilir. ABŞ-ın, İngiltərənin 1930-cu illər dünya iqtisadi böhranından uğurla çıxmasında müstəqil jurnalistin və müstəqil jurnalistikanın rolu böyük olub. Hadisələrə öz baxış və təhlil bucağı olan müstəqil jurnalistlərin Azərbaycan gerçəkliyində hər tip ziyalıdan artıq qəbul edilməsi danılmaz faktdır. Medianın siyasiləşməyə meylinin gücləndiyi indiki vaxtda şəxsiyyətcə müstəqil jurnalistlərin qəzetdən-qəzetə transfer faktını başa düşmək gərəkdir. Medianın özündə yaranan təmiz rəqabət şəraiti müstəqil jurnalistin öz müstəqilliyini qorumasına xeyli imkan verir. Bu tipli jurnalistlər medianın bütün qollarında var.

Cəmiyyətin, Azərbaycan reallığının keçid dövründəki durumunda müstəqil olmağın çətinliyi dərk edilәndir. Lakin keçid dövrü özünün çətinliyə dözümsüz jurnalistlərini də yetişdirir. Hətta bu dözümsüzlük jurnalistikada ciddi neqativ faktların, ümumən postsovet məkanında təzə formalaşan "reket jurnalistikası", "jurnalist-killer" anlayışlarını da yaradır.

Mətbuatın rentabelliyi, təmiz gəlir, marketinq, menecment kimi anlayışlar jurnalistikada işlək terminlərə çevrildi. Hətta "jurnalistikanın iqtisadiyyatı" bir fənn kimi tədris prosesinə əlavə olundu. Beləliklə, jurnalistikanın iqtisadi problemləri gündəmə gəldi. Jurnalistikanın müasir iqtisadiyyatı – bazar mexanizmi əsasında fəaliyyət göstərən jurnalist təsərrüfatının istehsalat, yayım, istehlak sahələrindəki ictimai münasibətlərinin məcmuudur. Bu, informasiya bazarında rəqabət mexanizmi ilə fəaliyyət göstərir. Məqsəd ondan ibarətdir ki, informasiyanın potensial alıcıları bu yaradıcılıq məhsulunu almağa meyilli olsun. Uzun müddət sosializm şəraitində yaşamış Azərbaycan jurnalistikası XX əsrin əvvəllərində, xüsusilə Azərbaycan Xalq Cümhuriyyəti dövründə bu təcrübəylə fəaliyyət göstərmişdir. Bu gün də respublikada bazar münasibətləri əsasında fəaliyyət göstərmək üçün KİV-ə hər cür hüquqi baza yaradılmışdır. Belə bir tarixi ictimai-sosial şərait yeni jurnalistikaya keçid zərurətini yaratdı.

İkinci fəslin **"Müasir müstəqillik ideyasının gerçəkləşməsində klassik publisistikanın rolu"** adlanan ikinci bölməsində göstərilir ki, Azərbaycan xalqının düşüncəsində, milli ziyalılarımızın yaradıcılığında milli müstəqillik ideyası həmişə özünü göstərmişdir. Xüsusilə Azərbaycanın iki hissəyə ayrılmasına səbəb olan "Gülüstan" (1813) və "Türkmən-

çay" (1829) müqavilələrindən sonra xalqımızın bütöv Azərbaycan, "müstəqil Azərbaycan" uğrunda mübarizə ideyası heç vaxt səngiməmişdir. Azərbaycan klassik publisistikası bu ideyalar ətrafında xeyli material verir. Lakin Azərbaycanda bolşevik hakimiyyətinin tətbiqi ilə (1920) söz, mətbuat azadlığına qoyulan imperiya senzurası milli-azadlıq, istiqlal sözlərini jurnalistikanın leksikonundan çıxarıb atdı. Nəinki çıxarıb atdı, habelə Azərbaycanın Rusiya tərəfindən istilasını "Azərbaycanın Rusiyaya birləşdirilməsi" adı altında bayram kimi, istiqlal kimi qələmə verməyə başladı. Sovet işğalını isə əsl xoşbəxtlik adlandırırdılar.

1998-ci ildə 80 illik yubileyi tamam olan "Azərbaycan" qəzetinin kollektivinə təbrik məktubunda ümummilli liderimiz H.Əliyev deyirdi: "1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi orqanı kimi fəaliyyətə başlamış "Azərbaycan" qəzeti yarandığı gündən milli azadlıq mübarizəsinin ön sırasında addımlamış, xalqımızın çoxillik arzu və istəklərinin ifadəçisinə çevrilmiş, onun mənəvi dəyərlərinin, ictimai-siyasi ideallarının formalaşması işinə önəmli töhfə vermişdir"[1].

1918-ci il mayın 28-də Müstəqil Azərbaycan Xalq Cümhuriyyəti elan olunana qədər istiqlal mücadiləsinin, 23 aylıq müstəqil dövlət həyatının tarixini publisistikada alim, filosof, sosioloq, dövlət və siyasət adamı kimi hərtərəfli tədqiq edib araşdıran M.Ə.Rəsulzadə onun öz təbirincə desək "qazanc" və "uğursuzluqları" mahir bir sərraf kimi millət və zaman tərəzisinə qoymuş və nəhayətdə belə bir nəticəyə gəlmişdi ki, "Biz əlimizə keçən istiqlalı qoruya bilmədik".

Niyə qoruya bilmədik? Müəllif bu suala belə cavab verir: "Bu bir təcrübə idi. Bu böyük təcrübədəki uğursuzluğumuzun xüsusi və ümumi bir çox səbəbi vardır. Bu səbəbləri bir-bir təsnif və onların təsir əlaqəsini ayrı-ayrılıqda təhlil eləmək başlı-başına bir mövzudur. Bu mövzuya başqa bir vaxt həsr etmək lazımdır".

İstiqlal mücadiləsinin əsas təşkilatçısı və tanınmış lideri M.Ə.Rəsulzadə müstəqil dövlətçiliyin əsas təməlini təşkil edən milli istiqlal məfkurəsinin təhlili və tədqiqinə geniş yer verir və yenə belə nəticəyə gəlirdi ki, "fikrən də qazanılmamış, milli şüurda sabit yer tutmamış məfkurə maddətən də qazanılmadı. İlk təcrübə uğursuzluqla bitdi". Bu kəskin nəticə ilə bərabər, onu da qeyd edirəm ki, "İstiqlal məfkurəsi maddətən deyilsə də, fikrən qazanılmışdır".

---

[1] Əliyev H. "Azərbaycan" qəzetinin kollektivinə. "Azərbaycan" qəz., 1998, 15 sentyabr.

Bu çox dərin və böyük elmi-nəzəri müddəalardan bizim günlərimizdə də öyrənilib nəticə çıxarılacaq və əməli fəaliyyətdə istifadə ediləcək cəhətlər çoxdur. Əlbəttə, ən vacibi bu zəngin irslə tanışlıq, ona yiyələnmək ön plana çıxmalıdır. Müasir Azərbaycan mətbuatı bu vəzifəni qismən də olsa, yerinə yetirdi.

Beləliklə, deyə bilərik ki, 1980-ci illərin sonu, 1990-cı illərin əvvəllərində Azərbaycanın yeni müstəqillik uğrunda açıq mübarizə çağında klassik publisistikamızın bu mövzu ilə bağlı nümunələri iki cəhətdən xalqın, ziyalıların, publisistlərin köməyinə çatmış, aktuallıq kəsb etmişdir.

1. Bu publisistika istiqlal mücadiləsinin vacibliyini xalqa müraciət etməkdə maraqlı təbliğat rolunu oynamışdır;

2. Bu publisistika ziyalılarımızı mübarizə ənənələrinə qaytarmışdır;

3. Bu publisistika jurnalistikamızın istiqlal mücadiləsi mövzusunun qoyuluşu, onun ədəbi formaları, üsulları, publisist cəsarətli, vətəndaşlıq mövqeyi ətrafında tərbiyə olunmasına kömək etmişdir.

4. Bu publisistika özünün klassik təbliğat gücü ilə, cəsarəti ilə, üsul və metodları ilə bir məktəb rolu oynayaraq müstəqillik uğrunda yeni mübarizənin bağlanmasına və bu ideyanın gerçəkləşməsinə xidmət etmişdir.

İkinci fəslin **“Publisistik irsin yenidən nəşri məsələləri”** adlanan üçüncü bölməsində qeyd olunur ki, Azərbaycanın müstəqilliyi ərəfəsində və sonrakı illərdə ərəb qrafikasında olan klassik publisistik irsə və ayrı-ayrı mətbuat orqanlarında çap edilən zəngin yaradıcılıq materiallarına ictimai maraq güclənməyə başladı. Klassik publisistik irsə XX əsrin sonlarında yenidən müraciət, bu publisistika faktlarının gündəmə gəlməsi, onların yeni istiqamətdə mətbuat təhlilləri və s. keyfiyyətlər həmin yaradıcılıq faktının aktuallıq kəsb etməsi ilə bağlıdır. Aydındır ki, sovet hakimiyyəti illərində XX əsrin əvvəllərində yaşayıb-yaratmış bir çox publisistin yaradıcılığını nəinki yenidən çap etmək, habelə onları elmi tədqiqatlara cəlb etməyin də üzərinə senzura qadağası qoymuşdu. Doğrudur, bütün günahlar sovet rejiminin mahiyyətindən doğurdu, lakin bir çox halda Azərbaycan sovet ziyalılarının da bu sahədə - istiqlal düşüncəsi ilə yoğrulmuş klassik publisistikanın gizlədilməsində rolu olmuşdur[1]. Tədqiqata cəlb olunan publisistlərin çoxu sovet ideologiyasına uyğun yaradıcılığa malik şəxslər olmuşdur. Bu sırada N.Nərimanov, Ə.H.Qarayev, S.Ağamalıoğlu,

---

[1]Məmmədli C. Sovet senzura sisteminin publisistika üzərində nəzarəti. “525-ci qəzet”, 1994, 12 noyabr.

S.M.Qənizadə və başqalarının yaradıcılığına həsr olunmuş tədqiqatları misal gətirmək olar.

İndi “ağ ləkələr” silinir. Unudulan, unutdurulan adlar yada düşür, respublika mətbuatında onlara müxtəlif yazılar həsr edilir. Əlbəttə, hələ bütün qovluqlar açılmayıb, sirli, müəmmalı, “işlərin” hamısı yenidən vərəqlənməyib. Ciddi araşdırmalar, miqyaslı ümumiləşdirmələr hələ öndədir.

Bu təşəbbüslər getdikcə genişləndi. Azərbaycanın publisistika ənənlərini yada salmaq, bu ənənələri müasirləşdirmək, üzərinə qadağalar qoyulan publisistikanı yenidən xalqa çatdırmaq əsl vətəndaşlıq işinə çevrildi. Belə bir vətəndaşlıq işinə ilk dəfə və fundamental şəkildə Bakı Dövlət Universitetinin professoru Ş.Hüseynov girişdi. Son 20 ildə onun bu mövzuda 500-dən atrıq məqaləsi[1], 4 kitabı[2] işıq üzü görüb.

1980-ci illərin sonunda SSRİ-də başlayan yenidənqurma dövründə Azərbaycan xalqının milli özünüdərk prosesi gücləndi və bu, müstəqillik uğrunda açıq mübarizə hərəkatı ilə nəticələndi. Belə bir vaxtda, yuxarıda da dəfələrlə qeyd etdiyimiz kimi, ilk yada düşən Azərbaycan Xalq Cümhuriyyətinin demokratik dövlət modeli və onun qurucusu M.Ə.Rəsulzadə oldu. Belə bir müstəqillik mücahidi haqqında çoxlu məqalələrlə bərabər, onun əsərləri də yenidən çap olunmağa başladı. 1990-cı ildə publisistin “Azərbaycan Cümhuriyyəti”[3], 1992-ci ildə Ş.Hüseynovun tərtibatında əsərlərinin birinci cildi çapdan çıxdı[4]. Publisistin bu kitablarında Azərbaycan istiqlalı ilə bağlı əsərləri toplanmışdır. Müasir publisistlərdən biri, Rusiya EA Tarix institutunun əməkdaşı Salavat İsaqov doğru yazır ki, M.Ə.Rəsulzadə: “XX əsrin ən mühüm azərbaycanlılarının siyahısına daxil olsa da, onun... fəaliyyətinin bir çox cəhətləri hələ də lazımınca öyrənilməmişdir”[5]... Azərbaycanda indi M.Ə.Rəsulzadə irsi xeyli dərəcədə öyrənilmişdir. Onun publisistik irsi Ş.Hüseynov tərəfindən öyrənilib və hələlik dörd cilddə çap edilmişdir. Bundan başqa, professor Vaqif Sultanlı onun yaradıcılığı ətrafında doktorluq dissertasiyası müdafiə etmişdir.

---

[1] Hüseynov Şirməmməd. Biblioqrafiya. Bakı: Bakı Universiteti, 2004, s. 46-87.

[2] Yenə orada, s. 40.

[3] Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı: Elm, 1990.

[4] Rəsulzadə M.Ə. Əsərləri. I cild, Bakı: Azərnəşr, 1992.

[5] Политический архив XX века. Мамед Амин Расулзаде // Вопросы истории, 2002, № 2, с. 32.

Azərbaycan mətbuatı, ədəbiyyatı, ictimai fikir tarixində "füyuzatçılıq", "füyuzat" ədəbi məktəbi, "füyuzat"çı fəlsəfi fikir cərəyanı və s. bu qəbildən olan ifadələrə tez-tez rast gəlmək olar. Sovet-bolşevik hakimiyyəti illərində ən çox hücuma məruz qalan, saxtalaşdırılan mətbuat orqanlarından birincisi də məhz "Füyuzat", onun baş redaktoru Əli bəy Hüseynzadə və digər görkəmli "füyuzat"çılar idilər. Nə üçün? Türkçülük, azərbaycançılıq, turançılıq ideyalarını təbliğ etdikləri üçün. Onların yaradıcılıq yolu ədəbiyyat, mətbuat, fəlsəfəyə xidmət, sosial kredoları Azadlıq, milli tərəqqi naminə birliyə çağırış idi.

Bayrağımızdakı üç rəngin üçünün də ilk "rəssamı" Əli bəydir. Belə bir böyük tarixi şəxsiyyətin cəmiyyət həyatı, bəşər taleyi, insan mənəviyyatı haqqında düşüncələrlə zəngin ədəbi-fəlsəfi irsinə yeni münasibət formalaşıb. Azərbaycan Respublikası MEA Nizami adına Ədəbiyyat İnstitutunun əməkdaşı, filologiya üzrə fəlsəfə doktoru Ofeliya Bayramlı onun publisistikasını tədqiq edib. 1994-cü ildə Ofeliya xanım Ə.Hüseynzadənin 1906-1910-cu illərdə "İrşad", "Tərəqqi" və "Həqiqət" qəzetlərində hissə-hissə dərc edilmiş "Siyasəti-fürusət" sərlövhəli oçerklərini toplayaraq ayrıca kitabça halında nəşr etdirmişdir.

Azərbaycan istiqlal əldə edəndən sonra jurnalistika ilə bağlı bu tipli kitablar işıq üzü görməyə başlamışdır və bu proses indi də davam etməkdədir. Xalq bu kitablar vasitəsilə öz publisistlərini tanımağa, qiymətləndirməyə başlamışdır. Müasir müstəqillik dövründə bu istiqamətdə aparılan tədqiqat işləri və nəşr nümunələri ona görə mühüm ictimai-mədəni dəyər daşıyır ki, onlar vasitəsilə ümummilli tarixi yaddaş mənzərəsini daha aydın işıqlandırmaq, xalqı özünə və dünyaya tanıtmaq mümkündür.

Dissertasiyanın **"Azərbaycan publisistikasında irs-varislik əlaqələri"** adlanan üçüncü fəsli iki bölmədən ibarətdir. **"Klassik publisistik irsin sənətkarlıq ənənələri"** adlanan birinci bölmədə qeyd olunur ki, publisistikaya müasir maraq onun mahiyyətindən doğur. Klassik publisistikaya yeni qayıdış onun sənətkarlıq xüsusiyyətləri ilə də bağlıdır.

"Əgər nəticə etibarilə hər hansı bir əsərdə publisistika üçün ümumi olan qanunauyğunluqlar yoxdursa, onu publisistik əsər kimi qiymətləndrmək olmaz"[1]. Həm də bu "ümumi qanunauyğunluq" publisistikanın sənətkarlıq xarakterini müəyyən edir.

Azərbaycan bədii söz sənətinin publisistik məqamlarından qaynaqlanan, bəhrələnən klassik publisistikamız özünün sənətkarlıq

[1] Прохоров Е.П. Публицист и действительность. М.: Изд-во МГУ, 1973, с. 288.

xarakteri ilə də heyrət doğuracaq faktlara malikdir. Onun sənətkarlıq cəhətləri iki mühüm amillə ölçülə bilir. Birincisi, sənətkar, peşəkar publisist günün aktual problemlərini, ictimai maraq doğuran faktları seçməyi bacarır, ikincisi, bu problemləri ədəbi-bədii cəhətdən – janr, kompozisiya, konflikt və onun həlli üsulları, müəllif obrazı, tipikləşdirmə və s. kimi məsələləri əhatə edir. Birinci cəhət belə bir məsələ ilə də özünü göstərir ki, "publisistika zamanın əsas ideyalarını mümkün qədər ətraflı və açıq ifadə edən yaradıcılıq növüdür"[1]. "Publisistika həyatın məhz indiki zaman üçün çox aktual olan problemlərinin müxtəlif aspektlərini əhatə edir, təhlilə çəkir, izah edir və s. Jurnalistikanın digər sahələrindən fərqli olaraq publisistika fəlsəfə koordinantlarına yaxın olub, qnesologiya, məntiq və psixologiyanın kəsişdiyi nöqtələrdən keçir"[2]. Azərbaycan klassik publisistikasının nümayəndələrindən olan C.Məmmədquluzadənin, Ö.F.Nemanzadənin, Ü.Hacıbəylinin, M.Ə.Rəsulzadənin, Ə.Hüseynzadənin, N.Nərimanovun, F.Köçərlinin və bir çox digərlərinin yaradıcılığında bu istiqamətdə aktual nümunələr çoxdur. Bu publisistlər günün vacib məsələlərini seçməyi bacarmışlar. Həm də onlar o qədər milli, azərbaycançı və o qədər Vətənə yanımlı olublar ki, nəinki yaşadıqları çağın, habelə sabahın, gələcəyin problemlərini də görməyi və onların publisistik həllini verməyi bacarmışlar.

Bu publisistikanın bir sıra sənətkarlıq məsələləri sırasında publisistin polemika ustalığı mühüm yer tutur. Nəzərə alsaq ki, həqiqətən "ədəbiyyatın başqa janrlarında fərdi publisistik əsərlərdə mübahisə, polemika həlledici üslub keyfiyyətlərindəndir"[3], onda bu üslubun M.Cəlil yaradıcılığında özünü göstərən məqamlarına xüsusi diqqət yetirmək maraqlıdır.

Güclü məntiqi, axıcılığı, təbiiliyi və müəyyən ölçü daxilində obrazlılığı özündə birləşdirən publisistikasında Ü.Hacıbəyov ictimai mühakimələrdən, məntiqi vurğudan, yeri gəldikcə bədii nida və sualdan, təzad və sinonimlərdən, bəzən də maraqlı müqayisə və bənzətmələrdən istifadə etməklə öz fikirlərini aydın nəzərə çarpdırır. Sənətkarın publisistikasını araşdıran A.Ağayev yazır: "Üzeyir Hacıbəyovun publisistik fəaliyyətinin məzmun dərinliyi, forma zənginliyi XX əsrin qabaqcıl jurnalistlərinin yaradıcılığı ilə, publisist əsərləri ilə müqayisədə daha

---

[1] Елеонская А.С. Русская публицистика второй половины XVII века, М., 1978, с. 3.
[2] Məmmədli C. Jurnalistikanın müasir inkişaf meylləri, s. 262-263.
[3] Hüseynov Ə. Sənət yanğısı. Bakı: Yazıçı, 1979, s. 35.

qabarıq şəkildə nəzərə çarpdırır"[1]. XX əsrin əvvəllərində mətbuatda məhsuldar publisist yaradıcılığı göstərmiş jurnalistlərin, yazıçı-publisistlərin hamısını Vətən, xalqın maariflənməsi, müstəqillik ideyaları birləşdirdiyi kimi, onların bu ideyalarının ədəbi gerçəkləşmə yolları, üsulları, üslubları da yaxın olmuşdur. Haqqında bəhs etdiyimiz Üzeyir bəyin "sadə, hamı üçün başa düşülən, doğma dildə yazılan, əsil milli koloritli əsərləri xalqın ruhuna çox yaxın idi"[2].

Böyük ədəbiyyatşünas – alim və yazıçı Mir Cəlal Füzulinin sənətkarlığından bəhs edərkən göstərir ki, "Füzuli lirikasının sənətkarlıq, texnika və bədii xüsusiyyətlərinin öyrənilməsi və izahı bizim, demək olar ki, bütün klassik şeirimizin bədii sanbalının təyin məsələsidir. Çünki Şərq poeziyasında elə forma, üsul, janr, qayda yoxdur ki, Füzuli ona toxunmamış olsun"[3]. Biz eyni fikri klassik dünya publisistikasının dərin qatlarına bələd olan və ölməz nümunələr yaradan C.Məmmədquluzadə, Ü.Hacıbəyli, Ə.Hüseynzadə, Ə.Ağaoğlu kimi milli klassik publisistlərimizin yaradıcılığına da aid edə bilərik. Bu baxımdan XX əsrin əvvəllərində meydana çıxmış klassik publisistikamızın sənətkarlıq xüsusiyyətləri müstəqil, mükəmməl tədqiqat obyekti kimi daha geniş araşdırılmağa layiqdir.

Cəmi bir neçə klassik publisistika nümayəndələrindən də göründüyü kimi, yaradıcılığın bu növü XX əsrin əvvəllərində məktəb səviyyəsinə yüksəlmiş və bu gün də sənətkarlıq məktəbi səviyyəsini saxlamaqdadır. Bu publisistikanın müasir jurnalistlərimizin, ümumiyyətlə, publisistik yaradıcılıqla məşğul olan ziyalılarımızın fəaliyyəti təsiri indiki müstəqillik illərində də özünü göstərməkdə, irs-varislik əlaqələrinin saxlanmasına səbəb olmaqdadır.

Dissertasiysanın **"Müasir publisistika ictimai tarix kontekstində"** adlanan ikinci bölməsində qeyd olunur ki, uzun müddət Azərbaycan filoloji fikrində klassika və ədəbi məktəb anlayışı daha çox bədii söz sənətinə aid edilmişdir. Lakin Azərbaycanın yeni müstəqillik uğrunda mübarizə çağında (1988-1992) və ondan sonrakı demokratik, hüquqi dövlət quruculuğunu əks etdirən yeni dövrdə ictimai həyata, siyasi hadisələr, kütlələrin hərəkatına, milli özünüdərk prosesinin güclənməsinə tarixi publisistika daha çox təsir göstərməyə başladı. Bu yerdə, hətta tarixi publisistika klassik ədəbiyyatın qiptə edəcəyi qədər böyük bir təsir gücünə malik oldu. Azərbaycanın əbədi

---

[1] Ağayev A. Klassiklər həmişə müasirdir. Bakı: Nurlan, 2009, s. 7.

[2] Ağayev A. Klassiklər həmişə müasirdir. Bakı: Nurlan, 2009.

[3] Mir Cəlal. Füzulinin sənətkarlığı. Bakı: ADU nəşri, 1985, s. 143.

qüvvələri – jurnalistlər, qəzet təşkilatçıları, jurnal istehsalçıları XX əsrin əvvəllərində yazıb yaratmış C.Məmmədquluzadə, Ö.F.Nemanzadə, M.Ə.Rəsulzadə, N.Vəzirov, Ü.Hacıbəyli, Ə.Hüseynzadə, Ə.Ağaoğlu kimi onlarla publisistin əsərlərini aktuallaşdıraraq oxucuya – yeni nəslə ötürdülər. 1980-ci illərin sonundan başlayaraq bu günə qədər intensiv şəkildə yenidən gündəmə çıxarılan bu publisistika özünün dərsləri ilə klassik mahiyyət kəsb etdi və etməkdədir.

1920-ci illərdən başlayaraq marksist-leninçi metodologiya əsasında inkişaf etdirilməyə başlayan Azərbaycan publisistikası bədii-estetik keyfiyyətini siyasi ideyalara "qurban" verməyə məcbur olsa da, 1960-cı illərdə klassik ənənələrə, o cümlədən XIX əsrin sonu və XX əsrin əvvəllərində yaranan satirik və romantik üslub ənənələrinə üstünlük verməyə başladı. Beləliklə, klassik milli ənənələrə qayıdış həm də publisist yaradıcılıq axtarışlarının cəmiyyət həyatına müdaxiləsinə şərait yaratmağa səbəb oldu. Yeni dövrün mövzu və problemlərini işıqlandırmaq əsas götürülsə də, bu dövrün publisistləri əsasən "Molla Nəsrəddin" jurnalistikası ənənələrinə - satirik tənqid meylinə, realist və romantik təqdimat prinsiplərinə istinad edir, cəmiyyətin islahına çalışır, ümummilli ideyaların həyata keçirilməsini mühüm vətəndaşlıq vəzifəsi kimi qiymətləndirirdilər. Bu sırada "Kirpi" jurnalının fəaliyyəti, Anarın "Molla Nəsrəddin - 66" əsəri, sovet dövrü Azərbaycan komediyalarında satirik və yumoristik tənqid ruhu, ictimai ziddiyyətlərin ifşasına meyli, "Mozalan" satirik kino-jurnalının ortaya çıxardığı həqiqətlər ayrıca qeyd olunmalıdır.

1980-ci illərin sonlarından Azərbaycanda başlayan milli-azadlıq hərəkatı dövründə və ondan sonra meydana gələn "Meydan" – sonradan "Azadlıq", "AZərbaycan", "Aydınlıq", "Millət" və s. kimi qəzetlər öz proqram məqalələrində milli mətbuatımızın "Pışrov" (H.ZƏrdabi), yolgöstərən olma faktını ənənəyə çevirdilər.

1980-ci illərin sonu, 90-cı illərdə publisistika yarım əsrdən çox müddət ərzində qalxa bilmədiyi bir zirvəyə doğru yüksəlməyə başladı. Zaman klassik publisistikanın fəth etdiyi zirvəni yenidən fəth etməyə çağırırdı.

XX əsrin əvvəllərində publisistikada ifadə olunan 1905-1907-ci və 1918-ci illər erməni-müsəlman qarşıdurması, milli müstəqillik uğrunda mübarizə, vətənin bütövlüyü, xalqın birliyi, yeni mədəniyyət quruculuğu ideyalarının XX əsrin sonu və XXI əsrin əvvəllərində də analoji şəkildə mövcud olduğunu mətbuat materialları, o cümlədən "Azadlıq", "Aydınlıq", "Xalq qəzeti", "Ədəbiyyat qəzeti", "Ədalət", "Müxalifət" qəzetləri və

“Azərbaycan”, “Ulduz”, “Qobustan”, “Gənclik”, “Kİrpi”, “Xəzər”, “Xazar”, “Açıq söz” jurnallarının materialları təsdiq etməkdədir. 1990-cı illərdə qaçqınlıq, köçkünlük, aclıq, xristian-müsəlman iğtişaşlarının yenidən genişləndirilməsi, yenə də ərazi iddiaları ilə qonşu xalqlar arasında nifaqla bərabər, milli azadlıq hərəkatının güclənməsi, imperiya tərəfindən millətlərarası münaqişələrin qızışdırılması, qaçqınlıq, müxalif məqsədli siyasi, hərbi və beynəlxalq təşkilatların fəaliyyətləri, yaşanan sarsıntı və faciələr, qəhrəmanlıqlar və xəyanətlər publisistikanın təhlil obyektinə çevrildi. Bu illərdə mətbu orqanlarımızda vaxtaşırı çap edilən publisistik əsərlərin ictimai-tarixi rolu əhəmiyyətli dərəcədə artdı.

Azərbaycan publisistlərinin fəaliyyətində mövzuya, problemlərə klassik münasibət Anar, Elçin, S.Əliyarlı, S.Rüstəmxanlı, N.Veysəlli, S.Sərxanlı, T.Abdin, B.Sadıqov, N.Nəcəfov, M.Süleymanov, Mir Şahin, Sara Nəzirova, Rizvan Cəbiyev, Tahir Aydınoğlu və bu kimi yazıçıların, peşəkar jurnalistlərin əsərlərində özünü daha çox göstərməkdədir.

Müasir jurnalistikaya klassik publisistikanın təsir gücünün araşdırılması belə bir nəticəyə gəlməyə əsas verir ki, XX əsrin əvvəllərində meydana gəlmiş publisistika məktəbləri bu günümüz üçün həm mövzu, həm də sənətkarlıq cəhətdən mühüm əhəmiyyət kəsb edir. Yeni müstəqillik uğrunda mübarizə aparan jurnalistlərimiz öz fəaliyyətlərində klassik publisistika ənənələrini məktəb kimi qəbul etmiş və etməkdədir.

“**Nəticə**”də ayrı-ayrı fəsillərdə irəli sürülən mülahizələr ümumiləşdirilir. Dissertasiyanın sonunda istifadə edilmiş ədəbiyyat siyahısı verilmişdir.

**Dissertasiyanın əsas məzmunu müəllifin çap olunmuş aşağıdakı məqalələrində öz əksini tapmışdır**:

1. Klassik publisistikanın aktuallıq problemləri // H.Əliyevin anadan olmasının 85 və AXC-nin 90 illik yubileyinə həsr olunmuş elmi-praktik konfransların materialları, Bakı: Bakı Universiteti, 2008, s. 85-91.

2. Klassik publisistikanın ictimai xarakteri // Dil və ədəbiyyat (Beynəlxalq elmi-nəzəri jurnal), № 3 (69), 2009, s. 245-247.

3. Идеи национальной независимости в азербайджанской классической публицитстике и современности // Вопросы филологических наук, № 4 (38), Москва, 2009, с. 53-57.

4. Klassik publisistikaya qayıdış dövrü // Dil və ədəbiyyat (Beynəlxalq elmi-nəzəri jurnal), № 1 (72), Bakı, 2010, s. 259-261.

5. Müasir publisistikada klassik publisistika dərsləri // Filologiya məsələləri, Bakı, 2010, № 4, s. 500-506.

6. Роль Узеира Гаджибекова и Джейхуна Гаджибейли в общественно-политической и культурной жизни Азербайджана / İnternational Academy of Sciences and Higher Education. London, Great Britain. İnternational Conference Project Kiev, London. November 14, 2011, s. 110-111.

7. Publisistik irsin yenidən nəşri məsələləri // Tarix və onun problemləri (Nəzəri, elmi metodik jurnal), № 1, Bakı, 2013, s. 250-254.

8. Azərbaycan ədəbi-bədii dünyagörüşünün inkişafında Əhməd bəy Ağaoğlunun xidmətləri / H.Əliyevin 90 illik yubileyinə həsr edilmiş elmi-praktik konfransın materialları. Bakı: Bakı Dövlət Universiteti, 2013, s. 105-113.

9. Əli Nəzmi satiralarında klassik ədəbi dil problemi // Dil və ədəbiyyat (Beynəlxalq elmi-nəzəri jurnal), № 2 (90), Bakı, 2014, s. 305-308

**Рахиля Расул гызы КЕСЕМЕНЛИ**

# ПРИНЦИПЫ СОВРЕМЕННОСТИ КЛАССИЧЕСКОЙ АЗЕРБАЙДЖАНСКОЙ ПУБЛИЦИСТИКИ

## Резюме

Публицистика, как и ряд других видов литературно-художественного творчества, в какой-то период приобретает классическую сущность и превращается в объект пристального внимания исследователей разных времен. Изучение этого вопроса показывает, что азербайджанская публицистика конца XIX – начала XX века по нескольким важным направлениям всегда носила классический характер. И именно по этой причине сегодня она стала фактом научно-теоретического и общественно-политического мышления.

Если окинуть взглядом масштаб соответствия классической публицистики нашему времени, то можно заметить, что советская идеологическая машина, которая всегда опасалась любого проявления национально-освободительных идей, всегда держала публицистическое творчество под своим строжайшим контролем. При повторных обращениях к творчеству таких публицистов, как Г.Зардаби, А.Топчибашев, М.Шахтахтинский, А.Гусейнзаде, А.Агаоглу, Дж.Мамедгулузаде, О.Ф.Неманзаде, М.Э.Расулзаде, У.Гаджибейли, Н.Нариманов, Ф.Кёчерли, Г.Везиров, Н.Везиров, Ю.В.Чеменземинли, классическая сущность их публицистики становится всё очевиднее.

Степень актуализации публицистики спустя продолжительное время зависит от политических, общественных и социальных условий. И азербайджанская классическая публицистика, оказавшись в новейшее время в контексте таких условий, сыграла исключительную роль в реализации идеи восстановленной независимости. В этом и следует искать причину массового тиражирования образцов классической публицистики в виде отдельных книг и сборников. В результате исследования проблемы в рассматриваемом направлении можно придти к следующим выводам:

- процесс, позволяющий классической публицистике на определенном этапе вновь привлечь внимание общественности, носит вполне содержательный характер;

- включение классической публицистики в определенное время в повестку дня обуславливается аналогичностью общественно-политических проблем и исторических периодов;

- актуальность классической публицистики в новейшее время неразрывно связана с ее тематикой;

- наиболее серьезной темой, обуславливающей возврат к классической публицистике, является национально-освободительное движение;

- глубокое изучение современности азербайджанской классической публицистики имеет огромное теоретическое и практическое значение для нового поколения. При этом весьма важно, чтобы современность эта была бы верно осмыслена молодой генерацией. В этом деле немаловажную роль играют академические издания и исследования;

- важнейшее значение в осовременивании классической публицистики имеет глубокое раскрытие особенностей мастерства ее авторов;

- классическая публицистика со всеми ее положительными качествами является незаменимой школой творчества для новаторских поисков.

Современная азербайджанская публицистика зиждется на прочных традициях, заложенных национальной классической школой. И сегодня большинство наших современных публицистов в своей повседневной творческой деятельности продолжают руководствоваться такими принципами этой школы, как тематическое богатство, особенности художественного мастерства, беспристрастное отношение к событиям и фактам и др.

**Rahila Rasul Kesemenli**

# THE CONTEMPORARY PRINCIPLES OF CLASSIC AZERBAIJANI PUBLICISM

## Summary

As many other kinds of literary and artistic art, publicism also has classic essence and becomes the fact that the time addresses to. According to the observations, at the end of XIX and in the beginning of the XX century the Azerbaijani publicism carried out classic character for some important direction and for that reason has become the fact of circulation of public and political sense. If we look at the necessity factor of classic publicism of our contemporary period, we face with the fact that the main fear for the soviet ideological creative system and prohibitions and realizing the national libration ideas was the pubicistic creative work. If we address the creative work of such publicists like H.Zardabi, A.Topchubashov, M.A.Shahtakhtly, O.F.Namanzadeh, M.A.Rasulzadeh, U.Hajibayly, A.Huseyinzadeh, A.Aghaoghlu, C.Mammadguluzadeh, N.Narimanov, F.Kocharly, N.Vazirov, Y.V. Chamanzaminly again, the classical essence of this publicism becomes vivid to us.

The circulating of publicism after a long passed period again depends on political, social and public condition. The Azerbaijani classic publicism in a new period faced with such political, social and public condition.

This publicism played an important role in the realization of a new independent idea.

And we can find it in the bases of printing of books and examples of classic publicism again.

The investigation of this problem in this context results the followings ; -In a certain period realization of a new intellectual interest of classic publicism.

-Appearing of classic publicism in a certain period again is realized with the parallelism of social and political problems and historical periods as well

-The modernity of classic publicism in a new period is closely connected with its subjects.

-The serious subjects that condition the returning of classic publicism in a new period is the national –liberation subject.

- In order to preserve the modernity of classic publicism and to pass it to the new generation as it is and its realizing is very important. And for this reason investigations and academic publications are very important.

- In the listing of modernity that conditions classic publicism, its mastership features have great importance.

- Classic publicism with its all gualities is a creative school for searching of innovation.

-The present Azerbaijani publicism has got the roots of classic school traditions.

- The majority of our contemporary publicists have accepted the richness of this subject, the features of literary mastership, events, the exactness to the facts and the principles of loyal relation and they use these principles in their creative works.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

---

*На правах рукописи*

**РАХИЛЯ РАСУЛ гызы КЕСЕМЕНЛИ**

# ПРИНЦИПЫ СОВРЕМЕННОСТИ КЛАССИЧЕСКОЙ АЗЕРБАЙДЖАНСКОЙ ПУБЛИЦИСТИКИ

**5720.01- Журналистика**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание ученой степени**
**доктора философии по филологии**

**БАКУ – 2014**

**Kağız formatı 60x84 1\16**

**“Bakı Universiteti”nəşriyyatı**
**Bakı ş., AZ 1148, Z.Xəlilov küçəsi 23**